**UOT 82**
https://doi.org/10.59849/2311-8482.2025.4.38

**AYTAC HƏMİDOVA***

# AZƏRBAYCAN POEZİYASINDA SATİRANIN DAVAMÇISI RÜFƏT ƏHMƏDZADƏ YARADICILIĞI KONTEKSTİNDƏ

*Bu məqalədə Rüfət Əhmədzadənin Azərbaycan poeziyasında satira janrının davamçısı kimi rolu və yaradıcılığının əsas xüsusiyyətləri araşdırılmışdır. R.Əhmədzadənin satirik şeirlərində cəmiyyətin mənəvi-əxlaqi problemləri, o cümlədən rüşvət, vəzifə düşkünlüyü və yaltaqlıq kimi mənfi hallar poetik ifadənin müxtəlif vasitələri ilə tənqid olunur. Məqalədə şairin klassik satira ənənələrini qoruyub saxlayaraq onları dövrün sosial reallıqlarına uyğunlaşdırması vurğulanır. Onun dili sadə və anlaşıqlı olmaqla yanaşı dərin məna qatlarına malik olub və müxtəlif şeir ölçülərindən səmərəli istifadə edib. Rüfət Əhmədzadənin yaradıcılığı Azərbaycan satirik poeziyasının inkişafında əhəmiyyətli rol oynayır və çağdaş oxucu üçün də aktualdır.*

***Açar sözlər:*** *Azərbaycan poeziyası, satira, Rüfət Əhmədzadə, ədəbi ənənə və yenilik, satirik şeir.*

## Giriş

Satira dünya ədəbi-estetik düşüncəsində olduğu kimi Azərbaycan ədəbiyyatında da özünəməxsus yerə malik olan mühüm bədii ifadə vasitəsidir. Azərbaycan poeziyasında satiranın inkişafı bir sıra mərhələlərdən keçmiş, zaman-zaman ictimai-mədəni şəraitə uyğun olaraq öz ifadə formalarını dəyişmişdir. Xüsusilə XIX əsrdən etibarən milli ədəbiyyatımızda satira cəmiyyətin problemlərini əks etdirmək, ictimai qüsurları tənqid etmək və xalqın düşüncəsini oyatmaq məqsədi ilə poeziya, nəsr və dramaturgiyada geniş tətbiq olunmuşdur. Bu dövrdə Mirzə Fətəli Axundzadə, Qasım bəy Zakir, Baba bəy Şakir, Mirzə Baxış Nadim və Seyid Əzim Şirvani kimi klassik söz ustalarının yaradıcılığında satiranın poetik imkanları inkişaf etdirilmiş bu janr ədəbi fikrin önəmli istiqamətlərindən birinə çevrilmişdir.

Azərbaycan poeziyasında satira öz kulminasiya nöqtəsinə XX əsrin əvvəllərində M.Ə.Sabirin yaradıcılığı ilə çatmı bu mərhələdə həm məzmun, həm də forma baxımından güclü bir estetik sistemə çevrilmişdir. Onun "Hophopnamə"sindəki gülüş təkcə əyləndirməyə deyil, düşündürməyə, oyatmağa və dəyişməyə yönəlmişdi. Lakin sonrakı dövrlərdə, xüsusilə sovet ideologiyasının təsiri altında satirik poeziyada geriləmə müşahidə olunmuşdur. Rəsmi senzura, ideoloji çərçivələr və "tənqidin sərhədləri" bu sahədə yaradıcı azadlığı məhdudlaşdırmış, nəticədə satirik ifadə imkanları ya formal şəkildə, ya da dolayı yollarla qorunmağa çalışılmışdır. Buna baxmayaraq, ötən əsrin ortalarından etibarən bəzən güclü, bəzən zəif formalarda olsa da satirik poeziya ədəbi məkanımızda varlığını davam etdirmiş, özünəməxsus fərdi üslub və mövzu müxtəliflyi ilə diqqət çəkmişdir.

Bu baxımdan, Rüfət Əhmədzadə kimi şairlərin yaradıcılığı satiranın ifadə vasitələrinin və məzmun mənbələrinin araşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Onun poeziyası sovet dövrünün məhdudiyyətləri içində satiranın bədii-estetik gücünü qorumaq və ifadə imkanlarını genişləndirmək baxımından dəyərləndirilməlidir. Rüfət Əhmədzadənin satirik şeirlərində təkcə fərdi yaradıcılıq nümunəsi deyil, həm də bir dövrün ictimai-mənəvi mənzərəsi, insan münasibətləri və sosial tənqid öz əksini tapır.

Bu məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada Azərbaycan poeziyasında kifayət qədər az tədqiq olunmuş bir mərhələ – sovet sonrası və müstəqillik dövrü satirik poeziyası kontekstində Rüfət Əhmədzadənin satirik şeirləri ayrıca və sistemli şəkildə araşdırılır. Ədəbiyyatşünaslıqda bu sahəyə dair tədqiqatların məhdudluğu, satiranın çağdaş formalarının bədii xüsusiyyətlərinin və funksional imkanlarının kifayət qədər aydınlaşdırılmaması bu mövzunun aktuallığını bir daha sübut

edir. Məhz bu səbəbdən, həm nəzəri baxımdan, həm də ədəbi-estetik təhlil çərçivəsində Rüfət Əhmədzadənin satirik poeziyasının tədqiqi Azərbaycan ədəbiyyatında satira janrının inkişaf dinamikasını izləmək baxımından dəyərli material verir və müasir ədəbi tədqiqatlar üçün əhəmiyyətli mənbəyə çevrilə bilər.

**Əsas hissə**

Rüfət Əhmədzadənin satirik şeirləri həm mövzu baxımından zəngindir, həm də ictimai düşüncəni əks etdirmə baxımından spesifik məzmun daşıyır. Onun satirası daha çox sosial ədalətsizliyin, rüşvətxorluğun, yaltaqlığın tənqidinə yönəlmişdir. Bu şeirlərdə müəllif yalnız qüsurları göstərməklə kifayətlənmir, eyni zamanda oxucuda bu mənfi hallara qarşı münasibət formalaşdırmağa çalışır. Gülşən Ağabəy yazır ki: “ R. Əhmədzadənin satirik şeirlərində qoyduğu problemlər, tənqid etdiyi hadisə və keyfiyyətlər dövrün, zamanın, cəmiyyətin mənəvi xəstəliklərini özündə ehtiva etdiyindən böyük təsir qüvvəsinə malik olurdu.” [1, s.33].

Gülşən Ağabəyin fikrində Rüfət Əhmədzadənin satirik poeziyası cəmiyyətin dövrəxas mənəvi problemlərini əks etdirməsi ilə fərqlənir. Şairin tənqid obyektləri gündəlik həyatın içindən seçildiyi üçün onun satirası oxucuda güclü təsir doğurur. Bu cür poeziya sadəcə gülüş yaratmır, həm də cəmiyyətin vicdanını oyadan güclü tənqidi vasitəyə çevrilir.

Rüfət Əhmədzadənin “Kirpi” jurnalındakı fəaliyyəti onun satirik yaradıcılığının formalaşmasında və geniş oxucu auditoriyasına çatmasında mühüm rol oynamışdır. “Kirpi” jurnalının öz dövründə satira və yumorun əsas platformalarından biri olması R. Əhmədzadənin istedadının geniş miqyasda tanınmasına, satirik şeirlərinin dövrün sosial-mənəvi atmosferinə uyğun şəkildə təqdim olunmasına imkan yaratmışdır. Bu məkan onun qələmindəki kinayənin, ironiyanın və ictimai tənqidin daha sərbəst və kəskin şəkildə ifadəsinə şərait yaratmış, onu dövrünün aparıcı satirik yazarlarından birinə çevirmişdir.

Rüfət Əhmədzadənin poeziyası yalnız məzmun baxımından deyil, həm də forma və ritm baxımından diqqətəlayiq xüsusiyyətlərə malikdir. Onun şeirləri müxtəlif bədii ölçü sistemlərindən istifadə edilməklə yazılmış, həm klassik poeziyanın, həm də xalq şeirinin forma imkanları ilə zənginləşdirilmişdir. Şairin bədii düşüncəsi və poetik üslubu təkcə satirik ruhu ilə deyil, ritmik quruluşun ahəngdarlığı və ifadə gücü ilə də seçilir. Bu baxımdan, Rəfiq Zəka yazır: “Rüfət Əhmədzadənin şeirləri əruzun oynaq bəhrlərində, hecanın yadda qalan şəkillərində yazılıb.” [8, s.205].

Rüfət Əhmədzadənin poeziyası forma və məzmun vəhdətində quruları milli poeziya ənənələrinə yaradıcı yanaşma nümunəsi göstərir. Onun həm əruzda, həm də hecada sərbəst və təsirli ifadə imkanları, şeirlərinin bədii-estetik dəyərini daha da gücləndirir.

Bədirxan Əhmədov qeyd edir ki: “Satira, komizm həyatdakı eybəcərliyə, geriliyə və s. ictimai məzmn verir və hadisələri gülünc, eybəcər vəziyyətdə təsvir edərək onlara tənqidi münasibət yaratmaqla ədəbi-estetik mahiyyət daşıyır.”[3, s.38].

Bu yanaşma, Rüfət Əhmədzadənin yaradıcılığının əsas ideya-estetik xəttinə tam uyğun gəlir. Onun şeirlərində hadisələr çox vaxt gülünc və eyni zamanda düşündürücü situasiyalarda təqdim olunur, bu da oxucuda həm emosional reaksiya doğurur, həm də sosial refleksiya yaradır.

Şair xalq yaradıcılığına dərindən bələd olduğu üçün zərb-məsəllərdən, atalar sözlərindən və deyimlərdən orijinal şəkildə istifadə edir; bu da onun satirasına həm rəngarənglik, həm də xalq dilinə yaxınlıq qazandırır. Onun müxtəlif satirik şeirlərindən gətirilən nümunələr göstərir ki, bu bədii üsullar vasitəsilə şair ictimai qüsurları daha kəskin, lakin oxucuya tanış və təsirli dillə ifadə etməyi bacarmışdır. Rəfiq Zəka həmin nümunələrdən bunları göstərmişdir:

“ halva deməkdən ağız, bil şirin olmaz bala!
…Sən də nitq eyləyən, gah nala vur, gah mıxa!
…Dostuna dost tən gərək, düşməyəsən gen gərək,
Can demişəm mən sənə, can deyəsən can gərək.
…İndi deyirlər mənə: olma yolundan azan,
Leyk qədim söz də var, “vur qazı dolsun qazan”.
…Mənə bir söylə görüm, indiki halın necədir,
Dəymişin üstə qalıb, yerdəki kalın necədir?” [8, s.206].

Bu məqamla da bağlı İsmayılzadə Cəfər yazıb ki: “ Rüfət qüvvətli qələmə malik satiric şairlərimizdəndir. Onun satiralarının müvəffəqiyyətli çıxmasına səbəb klassik ədəbiyyatın müsbət ənənələrindən və foklordan qidalanmsıdır.” [7, s.6].

Rüfət Əhmədzadənin satirik şeirləri, xüsusilə də “Artıqtamah arvadın nəsihəti” adlı şeiri, cəmiyyətin reallıqlarını xalq dili, yumor və ironiya vasitəsilə kəskin və düşündürücü formada ifadə edən bir nümunədir. Bu şeirdə şair yaltaqlıq, ikiüzlülük, gerçək dəyərlərin dəyişməsi kimi sosial mənəvi problemləri qadın obrazı vasitəsilə ironik tərzdə tənqid edir və oxucunu həm güldürür, həm də düşündürür.

“Sözünü şax deməyin öz evini yıxdı sənin,
Kimi tənqid elədin, axırına çıxdı sənin.
Bax bu yaltaqlara bir gör, nəyin artıqdı sənin?
Ay ütük, evləri, eyvanları hətta xəlidir,
Kişi, yaltaqlığa qurşan, başa düş, sərfəlidir.” [4, s.89].

Bu misralarda əsas diqqət yönəldilən məqam — doğrunu deməyin cəmiyyətdə cəzasız qalmamasıdır. Şair “sözünü şax deməyin” ifadəsi ilə cəsarətli və doğru danışmağın, ədalətli tənqidin bu günün reallığında təhlükə ilə nəticələndiyini göstərir. Cəmiyyətin bəzən əyrini düz, yaltaqlığı isə müdriklik kimi qəbul etməsi kinayəli bir dillə oxucuya çatdırılır. “Ay ütük” ifadəsi isə həm xalq deyimi, həm də alçaldıcı sarkazm kimi işlədilərək yaltaqlığın nəticəsində əldə olunan var-dövlətin qiymətsizliyini lağa qoyur. “Kişi, yaltaqlığa qurşan” ifadəsi təkrar olunmaqla həm məsləhət, həm də istehza xarakteri daşıyır.

“Maşının, mülkün olar, dəbdəbəli bağın olar,
Hələ heç ağlına gəlmirnə gözəl çağın olar.
Dədəmin canı, sənin də hələ yaltağın olar,
Nə döyürsən gözünü, yoxsa sözüm gülməlidir?
Elə zənn etmə ki, yaltaqlıq edənlər dəlidir,
Kişi, yaltaqlığa qurşan, başa düş, sərfəlidir.” [4, s.89].

Bu sonuncu bənddə müəllif yaltaqlığın nəticəsi kimi əldə edilən “uğurları” sarkazm vasitəsilə təqdim edir. “Maşının, mülkün olar” kimi ifadələr əslində cəmiyyətdə rüşvət, yaltaqlıq və imtiyaz hesabına əldə edilən süni statusa işarədir. “Dədəmin canı” – xalq dilinin tipik nümunəsi kimi burada səmimiyyətdən çox boş və qarmaqarışıq məntiqin parodiyasını yaradır. Şeirin kulminasiyası olan “Elə zənn etmə ki, yaltaqlıq edənlər dəlidir” misrası isə absurd vəziyyətin reallaşdığı bir cəmiyyət modelini təqdim edir – burada ağlın deyil, yaltaqlığın sərfəli olduğu vurğulanır. Bəndin sonunda

yenidən təkrarlanan "Kişi, yaltaqlığa qurşan..." misrası satiranın fəlsəfi və sosial yükünü bir daha xatırladır.

Şeirin hər iki bəndi xalq üslubu, danışıq dili və satirik ironiya ilə yoğrularaq cəmiyyətin mənəvi aşınmasını ifşa edir. Şair buradakı qadın obrazı vasitəsilə yaltaqlığı rəsmi dəyərlərdən biri kimi qəbul etmiş təbəqənin tərənnümünü istehzalı şəkildə təqdim edir və əslində belə bir davranışın nə qədər gülünc və eyni zamanda təhlükəli olduğunu göstərir.

Ağazadə Yədulla Rüfət Əhmədzadənin satirik yaradıcılığı barədə belə qeyd edir: "Müəllif çox zaman satirik tipi danışdırmaqla gözlətimiz önündə yalnız öz mənafeyini düşünən, yalnız özünü, yaxınlarını özünə arxa, vətən bilən bu tip xalqdan, vətəndən danışır, mənəvi zənginlikdən, insan ucalığından söz açır, elmsiz olduğu halda, başqalarına yol göstərir, 'dərs' keçir." [2, s.229].

Bu fikir Rüfət Əhmədzadənin satirasında tez-tez rast gəlinən ikiüzlü və riyakar sosial tiplərin ifşasını çox dəqiq təsvir edir. Şair satirik tip vasitəsilə əxlaqdan, vətənpərvərlikdən danışan, lakin əməldə yalnız şəxsi marağını güdən fərdləri tənqid hədəfinə çevirir. Bu tiplər oxucuya tanış və aktual ictimai stereotipləri xatırladır – özü savadsız olduğu halda, başqalarına "dərs" keçən, şəxsi mənafeyi uğrunda xalqın və cəmiyyətin adından danışan obrazlar. Rüfət Əhmədzadə belə obrazları danışdırmaqla onları öz sözləri ilə ifşa edir, yəni tənqid və istehzanı birbaşa deyil, obrazın içindən, ironik monoloq formasında təqdim edir ki, bu da satiranın gücünü daha da artırır. Bu cür üsul şairin didaktikadan uzaq, bədii inandırıcılığa əsaslanan, tənqidi-realist yanaşmasının göstəricisidir.

Rüfət Əhmədzadənin satirik şeirləri bir çox hallarda sadə bir insanın dilindən, xalq danışığı ilə, lakin dərin məna və ironik yüklə ifadə olunur. "Özündən bədgüman" şeirdə də şair ictimai aktivliyin, doğru söz deməyin, tənqid etməyin necə "cəzalandırıldığını", əksinə, lal qalmağın və yaltaqlığın sərfəli çıxış yolu sayıldığı bir cəmiyyət modelini təqdim edir. Şeirin motivi "susmaq nə gözəlmiş, niyə gec anlamışam mən?" misrasında ümumiləşdirilərək bütün mətni mənalandıran fəlsəfi-ironik nəticə kimi çıxış edir.

"Düz, doğru sözümçün qulağım çox burulubdur,
Görməkdə gözümçün qulağım çox burulubdur
Tənqidə dözümçün qulağım çox burulubdur
Amma yenə də boş-boşuna banlamışam mən,
Susmaq nə gözəlmiş, niyə gec anlamışam mən?" [5, s.31]

Bu bənddə şair düz danışmağın və haqsızlıqları dilə gətirməyin nəticələrinin cəzalandırılmaqla nəticələndiyini acı bir ironiya ilə təsvir edir. "Qulağım çox burulubdur" ifadəsi məcazi mənada təzyiqlərə, təhqirlərə, təqiblərə məruz qalmaq mənasını verir. Bu, cəmiyyətin doğruluğa qarşı dözümsüz münasibətini simvolizə edir.

"Boş-boşuna banlamışam mən" misrası, doğru danışmaqla bir şeyin dəyişmədiyini, sanki səssiz qalmağın daha müdrik seçim olduğunu göstərir. Burada "banlamaq" feilindən istifadə — insan səsinin quş səsləri kimi mənasızlaşdırılmasına yönəlmiş özünütənqidi ironiyadır. "Susmaq nə gözəlmiş..." misrası həm nəticə, həm mövqe dəyişimi, həm də faciəvi dərk anıdır — yəni şair cəmiyyətin reallığı ilə barışmaq məcburiyyətində qaldığını bildirir.

"Lal oldun əgər-kəlləsi var, ali, -deyirlər,
Dil-dil ötəsən-dünya deyil xali, -deyirlər,
İşləksən əgər –Ərdəbil hammalı,-deyirlər,
Harda yük olubsa oranı yanlamışam mən

Susmaq nə gözəlmiş, niyə gec anlamışam mən?” [5, s.31]

Bu bənddə şair cəmiyyətin dəyər sisteminin pozulmasını tənqid edir. “Lal oldun əgər – kəlləsi var, ali” misrası susqunluğun müdriklik kimi qələmə verildiyini, yəni danışmayan, fikir bildirməyənlərin daha çox dəyər gördüyünü ironik şəkildə çatdırır.

“Dil-dil ötəsən – dünya deyil xali” deyimi isə aktiv, danışan insanlara qarşı mənasız izahlarla susdurulma cəhdlərini göstərir — “dünya boş deyil” kimi ifadələr sanki tənqidin yerini həyat fəlsəfəsi ilə əvəzləməyə çalışanların müdafiə mexanizmidir.

“Ərdəbil hammalı” ifadəsi isə bir növ əməksevər, zəhmətkeş insanın istehzayla aşağılanmasıdır — sanki cəmiyyət tənqid edəni, çalışanı deyil, susanı və özünü geri çəkəni alqışlayır.

“Harda yük olubsa oranı yanlamışam mən” misrası ictimai məsuliyyət hissini daşıyan fərdin özünü bütün yükə ortaq etməsi, lakin bunun qarşılığında cəmiyyət tərəfindən qiymətləndirilməməsi anlamında işlənir. Bəndin sonunda yenidən təkrar olunan “Susmaq nə gözəlmiş...” misrası əvvəlki fikrin daha dərin və məğlubiyyətli formada vurğulanmasıdır.

Beləliklə, “Özündən bədgüman” şeiri Rüfət Əhmədzadənin öz dövrünün sosial-mənəvi vəziyyətinə tənqidi münasibətini çox aydın şəkildə ifadə edən satirik nümunədir. O, doğrunu deməyin cəzalandırıldığı, passivliyin müdriklik, susmağın isə məharət kimi qəbul olunduğu bir cəmiyyətin mənzərəsini acı ironiya ilə yaradır. Şair həm ictimai mühitin saxta meyarlarını, həm də aktiv, prinsipial insanın necə yorulduğunu və susmağa məcbur olduğunu göstərir. Şeirin dili sadə, bədii vasitələri isə güclü və çoxqatlıdır; bu da onu çağdaş Azərbaycan satirasının yaddaqalan nümunələrindən birinə çevirir.

Rüfət Əhmədzadənin satirik poeziyasında vəzifə düşkünlüyü, mövqeyə bağlı münasibət və cəmiyyətin maddi-mənəvi dəyərləri necə ölçdüyü kəskin tənqid edilir. “Dəyişildi” adlı bu şeir də məhz vəzifədən uzaqlaşdırıldıqdan sonra öz ətrafının dəyişən münasibəti ilə üzləşən bir şəxsin ironik etirafıdır. Əsərdə oxucuya tanış olan vəzifəpərəst tipin parlaq və güclü zamanlarında ətrafında baş əyənlərin, vəzifə bitən kimi yüz səviyyə dəyişməsi fonunda sadə, amma dərin mətləbli satirik portreti yaradılır. Şeir, insan dəyərinin sadəcə vəzifəyə bağlı olduğu bir mühitin mənəvi kasadlığını ifşa edir.

“Endikcə vəzifəm, olan hörmət dəyişildi,
Haqqımda gedən hər cürə söhbət dəyişildi.” [5, s.36]

Bu bənddə şair açıq şəkildə vəziyyətə görə dəyişən münasibətləri satirik dillə qabardır. "Endikcə vəzifəm" ifadəsi ilə mövqeyin enməsi sadəcə bir inzibati hal kimi deyil, şəxsi dəyərin cəmiyyətdə itirilməsi kimi təqdim olunur. “Olan hörmət dəyişildi” — bu misra göstərir ki, insanın özü yox, onun tutduğu vəzifə hörmətin əsas səbəbi imiş. Beləliklə, şair bu misralarla cəmiyyətin riyakarlıq və maraq yönümlü davranışlarını ustalıqla ifşa edir. İkinci misradakı “söhbət dəyişildi” ifadəsi isə göstərir ki, əvvəllər haqqında tariflər deyilən şəxs indi tənqid və qeybət hədəfinə çevrilmişdir.

“Aşkarda təşəkkür filan almış idim, amma,
Aşkarda deyil, hamısı xəlvət dəyişildi.” [5, s.36]

Bu bənddə satira daha da dərinləşir. Bir zamanlar “aşkarda təşəkkür” — yəni ictimai alqış və təqdir qazanan şəxs indi həmin “təşəkkürlərin” xəlvətdə inkar və ya laqeydliklə əvəzləndiyini

bildirir. Bu, təkcə fərdin nüfuzunun itməsi deyil, həm də cəmiyyətin zahiri münasibətlə daxili düşüncə arasındakı uyğunsuzluğunu göstərir. Rüfət Əhmədzadə burada şəxsi nüfuzun və hörmətin nə qədər saxta və dayanıqsız ola bildiyini göstərməklə yanaşı, ictimai riyakarlığın psixoloji mexanizmini də açır.

“Bir dəfə əgər zəng eləsəm yüz iş aşardı,
heç kim sözə baxmır, bu kəramət dəyişildi.” [5, s.36]

Burada müəllif vəzifədə olduğu zaman bir telefon zəngi ilə istənilən işi həll edə bildiyini, indi isə sözünün heç bir əhəmiyyət daşımadığını kinayəli dillə bildirir.

“Zəng eləsəm yüz iş aşardı” – cəmiyyətin necə şəxslər yox, vəzifələr əsasında işlədiyini, hətta qanunların belə bu tip münasibətlər üzərində qurulduğunu göstərir.

“Bu kəramət dəyişildi” misrasında isə “kəramət” ironik anlam daşıyır – əslində fövqəltəbii güc olmayan, yalnız postdan qaynaqlanan bir nüfuz əbəs yerə müqəddəsləşdirilmişdir. Şair bu satirik obrazla vəzifəyə bağlı “möcüzə gücünü” ifşa edir.

Rüfət Əhmədzadə bu şeiri ilə göstərir ki, bu şəxslər vəzifədə olduqları müddətcə onların ətrafı hörmətlə dolu olur, lakin post əlindən çıxan kimi həmin “hörmət”lər də qeybə çəkilir. Bu yanaşma yalnız satirik gülüş doğurmur, həm də ictimai düşüncəni silkələmək, dəyərlər sistemini yenidən düşünmək üçün ciddi siqnaldır.

R.Əhmədzadənin poeziyasında satiranın təsir imkanlarını genişləndirən əsas cəhətlərdən biri də bədii təsvir və ifadə vasitələrinin yerində və funksional istifadəsidir. O, şeirlərində təkcə gülüş doğurmaq məqsədi güdmür, eyni zamanda ciddi ictimai və əxlaqi problemləri bədii təzadlar, ironik paralellər və sarkazm vasitəsilə daha kəskin və düşündürücü şəkildə təqdim edir. Satirik fikrin daha güclü çatdırılması üçün poetik kontrast, bədii hiperbola, sarkazm və metaforik dillə ustalıqla işləyir.

Xüsusilə “Utanmır” rədifli qoşma janrında yazılmış satirik şeiri bu baxımdan diqqətçəkicidir. Burada bədii təzad vasitəsi ilə bir tərəfdə mənəvi dəyərlərin itməsi, digər tərəfdə isə bu haldan heç narahat olmayan, vicdan və utanma hissini tam itirmiş tiplərin real və sosial portreti yaradılır. Qoşma janrının sadə, lakin dərin ifadə tutumu, xalq ruhuna yaxınlığı və musiqili quruluşu R.Əhmədzadənin satirasına xalq ədəbi təfəkkürünün ritmini və təsir gücünü əlavə edir.

“Doğrunu yerini tutan yalanı,
Eşidən utanır, deyən utanmır,
Geyim də pay gəlir rüşvət alana,
Gətirən utanır, geyən utanmır.” [6, s.45].

Rüfət Əhmədzadənin bu qoşma bəndi əxlaqi dəyərlərin tənəzzülünü satirik dillə ifşa edir. Şair cəmiyyətdə yalanın doğruya qalib gəldiyini, rüşvətin isə adi bir hadisəyə çevrildiyini tənqid edir. Ən kəskin təzad isə utanmalı olanın – yəni rüşvət alıb geyinənin deyil, rüşvəti verənin utanmasıdır. Bu vəziyyət mənəvi ölçülərin dəyişdiyini və əslində utancın yerini laqeydliyin aldığını göstərir. Şairin məqsədi gülüş doğurmaqdan çox, bu yanlışlıqla oxucunu üz-üzə qoymaqdır. Misralardakı sadəlik dərin ictimai məna ilə yüklənərək təsir gücünü artırır. Nəticə etibarilə, bu bənd rüşvət, yalan və əxlaqsızlıq kimi sosial problemlərin poetik tənqid nümunəsi kimi diqqət çəkir.

**Nəticə**

Rüfət Əhmədzadənin yaradıcılığı Azərbaycan poeziyasında satira ənənəsinin layiqli davamçısı kimi qiymətləndirilir. Onun satirik şeirləri cəmiyyətin müxtəlif sosial və mənəvi problemlərini ustalıqla işıqlandırır. R.Əhmədzadə klassik satira ənənələrini qoruyaraq, onları müasir

dövrün reallıqları ilə zənginləşdirir. Onun poeziyasında rüşvət, yaltaqlıq, vəzifə düşkünlüyü kimi mənfi halların tənqidi diqqət mərkəzindədir. Satira vasitəsilə o, həm gülüş doğurur, həm də oxucunu düşünməyə və mənəvi-əxlaqi dəyərləri qorumağa çağırır. Əhmədzadənin dili sadə, anlaşıqlı, lakin mənaca dərin və təsirlidir. Müxtəlif şeir ölçülərindən və bədii ifadə vasitələrindən istifadə edərək şair fikrini daha kəsərli çatdırır. Onun əsərləri Azərbaycan satirik poeziyasının həm bədii, həm də ideya baxımından inkişafına töhfə verir. Rüfət Əhmədzadə yaradıcılığı həm klassik, həm də müasir oxucu üçün aktuallığını qoruyur. Nəticədə, o, Azərbaycan poeziyasında satiranın həm ənənəvi, həm də yenilikçi siması kimi önəmli yer tutur.

## ƏDƏBİYYAT


1. Ağabəy G. XX əsrin ikinci yarısında satiric poeziya. Bakı, Elm və təhsil. 2019, 104 s.
2. Ağazadə Y. Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı. Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş Dissertasiya. Bakı, 2013, 300 s.
3. Əhmədov B.B.. Azərbaycan satirasının inkişaf problemləri (1920-1980-ci illər). Bakı, Elm, 2000, 296 s.
4. Əhmədzadə R. Düzü-düz, əyrini -əyri, Bakı, Gənclik, 1973, 139 s.
5. Əhmədzadə R. Həlalik. Şeirlər. B. Yazıçı, 1991, 192 s
6. Əhmədzadə R. Məhəbbətlə, gülüşlə, Bakı, Yazıçı, 1981, 126 s.
7. İsmayılzadə C.R. "Məhəbbətlə gülüşlə" Əhmədzadə Rüfətin eyni adlı əsəri haqqında// Ədəbiyyat və incəsənət.-1983.-11 mart.-S.6
8. Rəfiq Zəka. Düzü-düz, əyrini-əyri…" Azərbaycan, 11 Noyabr, 1973, s.205-208.


***"Nizami Gəncəvi adına Milli Azərbaycan***
***Ədəbiyyat Muzeyi"nin dissertantı***
***E-mail: aytac.hamidova92@mail.ru***

**Aytaj Hamidova**

## THE CONTINUER OF SATIRE IN AZERBAIJAN POETRY RUFET AHMEDZADE IN THE CONTEXT OF HIS CREATIVE WORK

This article examines the role of Rufat Ahmadzadeh as the successor of the satire genre in Azerbaijani poetry and the main features of his work. In R. Ahmadzadeh's satirical poems, the moral and ethical problems of society, including negative situations such as bribery, dereliction of duty and flattery, are criticized using various means of poetic expression. The article emphasizes the poet's ability to preserve the traditions of classical satire and adapt them to the social realities of the time. His language, while being simple and understandable, had deep layers of meaning and effectively used various poetic dimensions. Rufat Ahmadzadeh's work plays an important role in the development of Azerbaijani satirical poetry and is also relevant for the modern reader.

**Keywords:** *Azerbaijani poetry, satire, Rufat Ahmadzadeh, literary tradition and innovation, satirical poetry.*

**Айтадж Гамидова**

## ПРОДОЛЖАТЕЛЬ САТИРЫ В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ РУФЕТ АХМЕДЗАДЕ В КОНТЕКСТЕ ЕГО ТВОРЧЕСТВА

В статье рассматривается роль Руфата Ахмедзаде как продолжателя жанра сатиры в азербайджанской поэзии и основные черты его творчества. В сатирических стихах Р. Ахмедзаде с помощью различных средств поэтического выражения критикуются морально-этические проблемы общества, в том числе такие негативные явления, как взяточничество, неисполнение долга и лесть. В статье подчёркивается способность поэта сохранять традиции классической сатиры и адаптировать их к социальным реалиям своего времени. Его язык, будучи простым и понятным, обладал глубоким смысловым наполнением и эффективно использовал различные поэтические измерения. Творчество Руфата Ахмедзаде играет важную роль в развитии азербайджанской сатирической поэзии и актуально для современного читателя.

**Ключевые слова:** *азербайджанская поэзия, сатира, Руфат Ахмедзаде, литературная традиция и новаторство, сатирическая поэзия.*

*Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 17.10.2025**
**Son daxilolma tarixi:23.11.2025**